# Şagirdlərin milli-mənəvi tərbiyəsinə diqqət və qayğı



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 yanvar 2015-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı" dünya təhsilinə inteqrasiya yolunu seçmiş milli təhsilimizin metodoloji əsası, başlıca fəaliyyət istiqamətlərini özündə mərtəbəli şəkildə birləşdirən konseptual sənəddir.

Ölkə başçısının 24 oktyabr 2013-cü ildə təsdiq etdiyi "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"nda əks olunmuş beş əsas təkmil istiqamət və prinsiplər əsasında hazırlanmış "Fəaliyyət Planı" növbəti 10 il ərzində mərtəbəli şəkildə təhsilin bütün pillələrində —məktəbəqədər təhsil pilləsindən başlamış ali təhsilədək bütün səviyyələrdə milli məzmun standartlarının və kurikulumların hazırlanması, ekspertizası, təsdiq və həyata keçirilməsini nəzərdə tutur.

Dövlət strategiyasında irəli sürülmüş istiqamət və müddəalar əsasında hazırlanmış "Fəaliyyət Planı"nın hədəflədiyi başlıca məqsəd Azərbaycanda Avropa standartlarına uyğun mükəmməl təhsil sistemi yaratmaqdan ibarətdir.



Məlumdur ki, müasir məktəbin müəllimi ümumtəhsil məktəblərində artıq 2008-ci ildən reallaşdırılmağa başlanılmış kurikulum standartlarının tələblərinə uyğun bir səviyyədə peşəkar əmək fəaliyyətinə qoşulmuşdur.

Təhsil sahəsində aparılan məqsədyönlü tədbirlərdən bəhrələnməklə öz işini günün tələbləri səviyyəsində qurmağa səy göstərən pedaqoji kollektivlər indi ölkəmizdə yetərincədir.

Qobustan rayonunun da təhsil işçiləri ölkədə uğurla həyata keçirilən təhsil islahatlarının nəticəsində xeyli müvəffəqiyyətlərə imza atmışlar. Bu gün əvvəlki illərlə müqayisədə orta ümumtəhsil məktəblərini müvəffəqiyyətlə bitirmiş məzunların ölkənin müxtəlif ali məktəblərinə qəbulunun statistikası deməyə əsas verir ki, təhsil işçiləri sözün həqiqi mənasında fədakarlıq göstərirlər.

**Həmsöhbətimiz Qobustan şəhərindəki 2 saylı tam orta məktəbin direktoru Əlibəy Abdüləzizovdur.** Əvvəla, onu demək yerinə düşər ki, 2 saylı tam orta məktəb şəhərdə Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə tikilərək istifadəyə verilmiş onlarla təhsil müəssisələrindən biridir. Burada təhsilin müasir tələblər səviyyəsində aparılması üçün hər cür şərait yaradılmış, fənn kabinetləri kompüter və müxtəlif avadanlıqlarla təchiz olunmuşdur.

Məktəbin direktoru bizimlə söhbətində görülmüş işlərdən söhbət açarkən vurğuladı ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə müstəqil Azərbaycanın təhsil sistemində başlanmış islahatlar hazırda Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Müasir dünyada rəqabətə tab gətirmək üçün ilk növbədə təhsilə, zəngin biliklərə, informasiya texnologiyalarına, innovasiya iqtisadiyyatına arxalanmaq lazımdır. Bu mənada neft kapitalının insan kapitalına, intellektual kapitala çevrilməsini öz siyasətinin prioriteti kimi qəbul edən Azərbaycan Prezidenti cənab İlham Əliyev təhsili daim diqqət mərkəzində saxlayır, ona xüsusi qayğı göstərir. Azərbaycanın bütün şəhər və rayonlarında yeni tikilən, müasir standartlara cavab verən məktəblərin tikilməsi, eyni zamanda təmir olunub müəllim-şagird kollektivinə təhvil verilməsi bunun əyani sübutudur. Müəllimlərə xüsusi qayğı ilə yanaşma, gənc müəllimlərin işinin qiymətləndirilməsi, onlara göstərilən dəstək bu gün cəmiyyətdə xüsusi rəğbətlə qarşılanır. Bu siyasətin davamı kimi 2008-ci ildə tikilib istifadəyə verilən Qobustan şəhər 2 saylı tam orta məktəb Qobustan rayon məktəbləri arasında seçilib fərqlənir. Geniş, müasir sinif otaqları, günün tələblərinə cavab verən idman zalı, hər cür təchizatlı laboratoriyalar, zəngin kitabxana görən hər kəsi heyran edir. Biz müəllimlər sözün həqiqi mənasında var gücümüzlə çalışırıq ki, təhsil verdiyimiz şagirdlər təkcə bilikdə, savadda deyil, eyni zamanda cəmiyyətə yararlı vətəndaş, şəxsiyyət baxımından da özlərini isbat edə bilsinlər. Bu istiqamətdə müxtəlif işlər aparılır. "Dəyirmi masa"lar, "Fənn gecələri", "Ədəbi-bədii gecə"lər, "Qiraət saatları", müxtəlif fənn yarışları, həm rayon rəhbərliyi, həm təhsil işçiləri tərəfindən, həm də rayon ictimaiyyəti tərəfindən xüsusi rəğbətlə qarşılanır. Tarixi günlər, anım günləri, bayram günləri çox yüksək səviyyədə qeyd olunur. Bu işlərdə şagirdlər xüsusi fəallıq göstərirlər. Onlar tamaşalar, səhnəciklər hazırlayır, sərgilər təşkil edirlər. Yanvar ayında 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş tədbir, fevral ayının 7-də Milli Qəhrəman Mübariz İbrahimovun ad gününə həsr olunmuş tədbir məktəb kollektivi, eyni zamanda rayon ictimaiyyəti tərəfindən yüksək səviyyədə qiymətləndirildi. Mübariz İbrahimovun doğum günü münasibəti ilə idman yarışları, bilik yarışları keçirildi. Qaliblər fəxri fərmanla mükafatlandırıldı. Bu və bu kimi tədbirlərin silsilə xarakter daşıması, hər il müxtəlif formalarda davam etdirilməsi bizim mənəvi borcumuzdur. Yeri gəlmişkən qeyd edim ki, rayon səviyyəsində təşkil olunan tədbirlərin əksəriyyəti məhz bizim məktəbdə təşkil olunur. Qobustan Rayon Polis Şöbəsinin narkomaniya ilə bağlı yuxarı sinif şagirdləri arasında keçirdiyi tədbir də bu qəbildəndir.

Məktəbin dərs hissə müdiri Güldəstə Rüstəmova, təlim-tərbiyə işləri üzrə direktor müavini Tamilla Qayıblı, psixoloq Sevil Kərimova, uşaq birliyinin rəhbəri Nazəndə Əliyeva, kitabxanaçı Leyla Gülmalıyeva öz vəzifələrini layiqincə yerinə yetirirlər.

Müəllimlərdən Aytac Rəcəbova, Ruslan Şahbazov, İntiqam Mürsəlov, Samir Rəhmanov, Dilarə Bağırova şagirdlərə xüsusi yanaşma, onlarla işləmək bacarığı ilə seçilib fərqlənirlər.

Ötən il ümummilli lider Heydər Əliyevin 91 illik yubileyi münasibətilə keçirilən inşa yazı müsabiqəsində Gülər Cavadovanın respublika məktəbləri arasında III yeri tutması, ilk onbirincilərin böyük əksəriyyətinin ali və orta ixtisas məktəblərinə daxil olması bizi çox sevindirir, müəllimlərimizin işləmək həvəsini daha da artırır. Bu sahədə xüsusi qabiliyyəti olan sinif müəllimlərindən Tənzilə Rzayeva, Xuraman Qayıblı, Bəyazxanım Niftalıyeva, Tünzalə Ələkbərovanın, Dilarə İsayevanın adını çəkmək istəyirəm. Şagirdlərdə əməyə, vətənə məhəbbət, yurd sevgisi, milli mənəvi keyfiyyətlərə sahiblik, milli dəyərlərə hörmət kimi ali hisslərin aşılanması başlıca məramımızdır.

**Söhbəti yazdı:**
**İlham PƏNAHOV,**
**"Respublika".**